***Vüsalə Raqif qızı Veysəlova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun*
*doktorantı, tarix üzrə fəlsəfə doktoru*
E-mail: Vusala Veysalova@mail.ru

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GƏNCƏBASAR BÖLGƏSİNDƏ YAYLAQLARA KÖÇETMƏ QAYDALARI VƏ KÖÇ YOLLARI HAQQINDA

**Açar sözlər:** Gəncəbasar, maldarlıq, köç qaydaları, yaylaqlar, köç yolları.

**Ключевые слова:** Гянджабасар, скотоводство, правила кочевки, летние пастбищи, кочевые дороги.

**Key words:** Ganja and its suburbs, cattle breeding, peculiarities of migrations, summer pastures, nomadic road.

Gəncəbasar bölgəsi əhalisinin təsərrüfat həyatında tarix boyu əkinçiliklə yanaşı, maldarlıq da mühüm rol oynamış, bu təsərrüfat sahəsi köçmə-maldar əhalinin gündəlik güzəranını (ərzaq baxımından) təmin etməklə həmahəng, onun məhsulları həm də əmtəəlik məhsul kimi bazarlara çıxarılmış, əhalinin pul vəsaitinə ehtiyacını ödəmiş, müəyyən sənət sahələrinin (papaqçılıq, kürkçülük, başmaqçılıq, ayaqqabı istehsalı, keçəçilik-həllaclıq, xalçaçılıq, sərraclıq, dəri qablar istehsalı və s.) xammalla təchizatında başlıca əhəmiyyət kəsb etmişdir. "Azərbaycanın (o cümlədən Gəncəbasar bölgəsinin – V.V.) əlverişli coğrafi mövqeyi və iqlim şəraiti bu ərazidə təsərrüfatın başqa sahələri ilə yanaşı, maldarlığın da meydana gəlməsinə və inkişafına geniş imkanlar vermişdir. Geniş çəmənlikləri, sərin yaylaqları, qışda isə mülayim iqlimi ilə bərabər, zəngin otlaqları, bol yem ehtiyatı olan Azərbaycan ərazisi heyvandarlığın inkişafını təmin edən hər cür imkanlara malikdir" [**7, səh. 27**]. Bu baxımdan keçmiş Yelizavetpol qəzasının bütünlüklə əhatə etdiyi Gəncəbasar bölgəsində heyvandarlığın qaramal sahəsi yetərincə inkişaf etdirilsə də, yaylaqlara köçetmə qaydaları başlıca olaraq heyvandarlığın qoyunçuluq sahəsi ilə daha sıx bağlı olmuş, burada köçmə-elat məişətinin əsas qayğılarından birini təşkil etmişdir. Statistik məlumatlara görə, XIX əsrin 30-cu illərində bölgənin Şəmşəddil distansiyasında 50 min başa qədər qoyun qeydə alınmışdır **[19, səh. 261].** 1845-ci ildə Yelizavetpol qəzasında 441180 baş, [**15, səh. 86],** 60-cı illərdə Yelizavetpol quberniyası üzrə davarın sayı 1150500 baş, 90-cı illərdə isə 1163878 baş olmuşdur. [**15, səh. 189-191**]**.** XIX əsrin 80-ci illərində N.A.Abelovun tərtib etdiyi cədvəldə Yelizavetpol qəzasında 142430 baş heyvan qeydə alınmışdır ki, onun da 13102 başı qoşqu heyvanı olan kəl və öküz, 14376 başı südlük qaramal, 105840 başı qoyun və keçi, 6943 başı at, 1464 başı uzunqulaq olmuşdur **[1, səh. 90].** XX əsrin əvvəllərində bölgədə qoyunçuluq təsərrüfatı daha da inkişaf etdirilmiş və burada 1248100 baş qoyun saxlanmışdır [**19, səh. 108].** Bölgədə yerli təbii-iqlim şəraitinə uyğunlaşdırılan bozax, herik, balbas, merinos və b. qoyun cinsləri yetişdirilmişdir. XX əsrin əvvəllərində Yelizavetpol qəzasının Səbətkeçməz kəndinin sakini, xalq seleksiyaçısı Ələs İbrahimxəlil oğlu erkək merinoslarla yerli qaba yunlu qoyun cinsini cütləşdirərək, nəticədə həm yununa, həm də ətinə görə yüksək keyfiyyətli metis qoyun cinsi əldə etmişdi [**8, səh. 6**]**.** Bütün bunlar sübut edir ki, bölgə əhalisinin təsərrüfat məişətində köçmə-elat həyat tərzi ilə səciyyələnən qoyunçuluq əsas yer tutmuş, əsrlər boyu yaylaq-aran köçü ənənəvi olaraq davam etdirilmiş, xüsusilə də yerli əhalinin məişətində yaylaqlara köçetmə zamanı sınaqdan çıxarılmış qaydalara əməl edilmişdir.

XIX əsrin 80-ci illərində Yelizavetpol quberniyası Qazax qəzasının iqtisadi məişətinin tədqiqatçısı A.D.Yeritsov yazırdı ki,

bütün qış boyu azərbaycanlı maldar-elat yaylağa köçetmə zamanının nə vaxt gəlib çatacağı barədə düşünürdü. Yaylaqda yaşamaq, bütün çətinliklərinə baxmayaraq, onun üçün ən yaddaqalan və rəngarəng çalarlı günlər kimi xatırlanırdı. Maldar-elat qışlaqda yem çatışmazlığı ucbatından zəif düşmüş heyvanını kökəltməyi hesaba alır, qadınlar artıq tükənməkdə olan ailənin ehtiyat pul vəsaitini ilk əldə edilən süd-ağartı məhsullarını və doğulmuş quzuları satmaqla yeniləməyi nəzərdə tutur, gənclər isə yaylaqlarda onlar üçün qurulacaq toy-düyün məclislərində ailəyə sahib olacaqlarını arzulayırdılar. Özgə hesabına qazanmağı istəyənlər üçün yaylaq daha sərfəli idi. Polisin gözündən yayınmağa çalışan qaçaq və ya borclu yüksək dağlıq ərazilərdə və sıx meşəliklərdə özünü daha sərbəst, azad hiss edərək yurd yerlərində sığınacaq tapırdı. Zəhmətkeş kəndlilər köç fəslində istirahət etməyi düşünür, bir qismi öz sağlamlığı üçün təmiz dağ havası almağa çalışır, digər qismi isə saf bulaq suyundan istifadəyə üstünlük verirdi. Maldar-elatın gözündə yaylaqdan başqa digər bir daha geniş anlayış yox idi: varlı da, ortabab ailə də, onların arxasınca isə geri qalmadan demək olar ki, heç bir əmlakı olmayan kasıb da yaylağa köç edirdi. **[6, səh. 125**]. Eyni quberniyanın – Yelizavetpol quberniyasının tərkibinə daxil edilmiş Qazax qəzasında olduğu kimi, Yelizavetpol qəzasında da mənzərə eynilə bu cür olmuşdur. Bölgənin heyvandarlıq təsərrüfatı həm oturaq maldarlıq, həm də köçmə maldarlıq istiqamətində formalaşmışdı. Köçmə-maldar elatların yaylaqlara köçetmə vaxtı və yaylaq dövrünün başlanması bir çox qeyri-müəyyən səbəblərdən – qışın davametmə müddətindən, onun sərtliyindən, yağan qarın miqdarından, otlaqların göyərməsi vəziyyətindən və s. asılı olurdu **[13, səh. 166; 10, səh. 97]**. İstər bölgədən topladığımız etnoqrafik çöl materialları, istərsə də mövcud ədəbiyyat göstəriciləri təsdiq edir ki, Gəncəbasar bölgəsində yaylaq köçü, bir qayda olaraq, aprel ayının ikinci yarısından başlanır, ayın sonuna qədər başa çatırdı. Ancaq köçə hazırlıq mərhələsi bir qədər əvvəldən – qışın son aylarından başlanır, Novruzdan sonraya qədər davam edirdi. Bu müddət ərzində yaylaq həsrətində olan maldarlar arasında həyat sanki canlanır, onlar mütamadi olaraq bir-birinin təsərrüfatına nəzər yetirir, qışı necə - itkili və ya itkisiz keçirmələri, mal-davarın vəziyyəti, köçə hazırlıq dərəcəsi, yaylaq yerlərinin müəyyən olunması və s. haqqında yetərli məlumatlar toplayırdılar. Bəzən hətta birgə məsləhətləşmələr zamanı köçün vaxtı, yaylaqlara köçetmə marşurutları, yurdların bölüşdürülməsi məsələləri də dəqiqləşdirilirdi. Köçə hazırlıq mərhələsində yaylaq şəraiti üçün lazımlı olan örkən, sicim, çatı, irəşmə, örəmə adlanan alaçıq bağları tədarük edilər, xurcun, iritutumlu məfrəş, dərmə və siyəzi çuval dəstlənər, dəri qablar (dağarcıq, eymə, tejən, qarın, tuluq nehrə və s.) sahmanlanar, yük və qoşqu heyvanlarının palan-navarı qaydaya salınar, arabalar yağlanıb nizamlanıb köç üçün hazır vəziyyətə gətirilərdi. Köçə hazırlaşan əhali böğçalarını tökər, təzə libaslarını geyinər, bəzənərdilər. Xüsusilə də təzə gəlinlər və nişanlı sorağında olan qızlar köçə daha həvəslə hazırlaşar, təzə paltarlar tikdirər, əlvan kəlağayılar sifariş verdirər, bəzək-zinət əşyalarını seçib-sonalayardılar.

Köçə hazırlığın ən ümdə məsələlərindən biri də yol üçün ərzaq tədarükünün görülməsi idi. Adətən azuqə və ya zumar adlanan bu ərzaq tədarükü 10 gün üçün nəzərdə tutulturdu. Buraya un (arpa və buğda unu), yaxın bazarlardan alınan düyü, qənd, çay, sabun, duz, kibrit, quru meyvə və s. daxil idi. Çobanlar bu müddət ərzində itlər üçün də arpa unu götürməyi unutmazdılar **[14, səh. 94-95].**

Bölgənin elliklə yaylaqlara köç edən kəndlərində dağa köçməzdən əvvəl bəzən 20-25 ailə öz evində olan bütün ağır şeyləri (buna “ağırrıq” deyilirdi) bir böyük evə yığırdı. Bu cür müxəlləfatı qorumaq üçün xüsusi inanılmış adamlar təyin edirdilər ki, onlara da ya “ağırrıqçı”, ya da “qalabəyi” deyirdilər. Adətən hər kənddə 5-6 nəfər ağırrıqçı olurdu. Onların nəzarəti müqabilində natura və ya pulla haqq verilir, heyvanlarını isə yaylağa aparırdılar. Lakin bəzən də elə olurdu ki,

yaylaqlara köç edənlərdən başqa, əhalinin müəyyən hissəsi daimi yaşayış yerində qalaraq yaylaqla müntəzəm əlaqə saxlamaqla bərabər, əkinçiliklə məşğul olur, ev heyvanları üçün qışa yem tədarükü görürdü **[4, səh. 119; 20, səh. 80]**. Bu faktı təsdiq edən N.A.Abelov da yazırdı ki, Kürətrafı kəndlər, xüsusilə də Kürəkçay hövzəsi kəndləri istisna olmaqla, bütün müsəlman (azərbaycanlı) obaları yaylaqlara köç edirdilər. Aranda qalanlar isə suvarma əkinçiliyinə əsaslanan bağçılıq və taxıl əkini ilə məşğul olurdular. Yaylaqlara köç edən aran kəndlərinin əhalisi müəyyən müddətdən sonra yaylaqdan arana enir, özlərinin buradakı təsərrüfat işləri ilə (ot və taxıl biçini, biçənəklərin suvarılması və s.) məşğul olur, yenidən yaylağa qayıdırdılar **[1, səh. 70]**.

Köç üçün seçilən mübarək bir gündə (adətən yerli əhali köç günü üçün adna və ya xas gününü mübarək gün hesab edirdi) isə köç başlanırdı. Burada bir məsələni xüsusi qeyd etmək lazımdır ki, bölgənin əsas qışlaqları Ceyrançöldə - Kürün sol sahilində yerləşdiyindən, qoyun sahibləri yaylaqlara köç etmək üçün bolsulu Kür çayından keçməyə məcbur idilər. Etnoqrafik ədəbiyyatda qoyun sürülərinin Kürdən keçirilməsi üçün iki üsuldan – çaydan birbaşa şığıdıb keçirmək və xüsusi keçidlərdə olan qayıqar vasitəsilə keçirmək üsulundan istifadə edildiyi barədə kifayət qədər məlumatlar verilmişdir **[17, səh. 150-153; 12, səh. 94; 18, səh. 412-413; 20, səh. 76-78**]. Köç müxəlləfatı, qoyun sürüləri, mal-qara və insanlar çaydan tam keçib qurtarandan sonra çayın sahilindəcə ilk düşərgə yeri müəyyənləşdirilir, burada bir neçə gün qalır, qoyunları qırxır və çimizdirirdilər. Adətən, köç yaylaq yerinə - yurd yerinə çatana kimi 5-6 yerdə qısamüddətə salınan düşərgədə olur, bununla da heyvan və köçlə gedənlər dincəlir, başlıcası isə sürülər tədricən yaylaq şəraitinə - soyuq havaya "öyrəşdirilirdi". Bəzən köç edən sürüləri "yazdaq" adlanan, bol yemi olan ərazidə də dayandırır, yaxşıca otarır, aramsız uzanan çətin dağ yollarına gümrah şəkildə çıxarmağa çalışırdılar. Köç edən mal-davar sahibləri köç müxəlləfatını təkərli nəqliyyat vasitələrinin hərəkəri üçün əlverişli olan yollarda araba ilə aparırdılar Bunun üçün arabanın cağlarına elastik çubuqlar qövsvari şəkildə əyilərək bağlanırdı. Bundan sonra onun üzərinə gəbə, kilim və ya keçə salınır, bar-barxana, yaylaq üçün zəruri olan avadanlıq arabaya yüklənir və üstünə də qocaları, qadınları və uşaqları mındirirdilər. Üstü bu cür bağlanan arabalar həm də müvəqqəti yaşayış evini əvəz edirdi **[3, səh. 11; 14, səh. 96]**. Köçün keçəcəyi yollar təkərli nəqliyyat vasitələrinin hərəkətinə imkan vermədikdə, əhali araba və az ehtiyac duyulan ləvazimatı yolüstü kəndlərdə əmanət qoyurdu. Yaylaq şəraiti üçün zəruri hesab olunan müxəlləfat isə (barxana, alaçıq ləvazimatı, qab-qacaq və s.) yük heyvanlarına yüklənərək yaylaqlara (yurd yerinə) aparılırdı **[11 səh. 75; 16, səh. 43]**. Beləliklə, bir həftəyə - on günə köç edənlər öz dədə-baba yurdlarına çatar, alaçıq və ya dəyə qurar, mal-davarı da yeləşdirərdilər. "Alaçıqlar qatarlanar, dövrə qurardı. Ətrafına qarım, beli tarım çəkilərdi. İki, bəzən də üç ay elat yaylaqda dinclik tapardı. Erkəklər kəsilər, alışma edilərdi. Kabab bozartmaya, xallı balıq qızartmaya qarışardı. Samovar dəmə qoyulardı. Qaymaq beçə balına qarışdırılar, dələmədən çəçil, bulamadan qoyux hazırlanardı. Qarın üstə süd sağılar, körəməz içilərdi. Saz dilə gələrdi, söz könüldən qopardı" **[5, səh. 75]**. XIX əsrin 80-ci illərində N.A.Abelov keçmiş Yelizavetpol qəzasının dövlət kəndlilərinin köç etdiyi yaylaq yerlərinin tam siyahısını tərtib edərək yazırdı ki, qəzanın 65 bəymülkədar və 4591 kəndli tüstüsü (burada ailə mənasında) aşağıdakı yaylaqlara köç edirdi:

| İcmaların adı | Yaylaqların adı |
|---|---|
| 1. Ağasıbəyli | Dolan-Çərəcə |
| 2. Azər-Əhmədli | Xaçbulaq |
| 3.Alabaşlı | Xaçbulaq |
| 4. Halalgün | Xaçbulaq |

| | |
|---|---|
| 5. Əhmədbəyli | Ballıca |
| 6. Balçılı | Həsən-nənə |
| 7. Birkəz | Bənövşəli |
| 8. Borsunlu | Sarıyal |
| 9. Hacalı | Xaçbulaq |
| 10. Həmənli (Mingəçevir icması ilə birgə) | Xaçbulaq |
| 11. Goranlı | Gəncədağ |
| 12. Dəliməmmədli | Zincirri |
| 13. Damcılı | Sarıyal |
| 14. Dəstəfur (Hacı icması ilə) | Yelliboyun, Bənövşəli |
| 15. Düyərli | Samanlıq, Şahdağ |
| 16. Ziyadlı | Xaçbulaq, Zincirri |
| 17. İrmaşlı | Çətindərə |
| 18.Qazanbulaq | Qaşqaçay |
| 19. Yegərçi-qazaxlar | Yağlıgüney |
| 20. Qapanlı | Çobandağ |
| 21. Qarabağlar | Xaçbulaq |
| 22. Qarabulaq | Magi, Çobandağ |
| 23. Qaracəmirli | Sədənəxaç |
| 24. Kərkücək | Bala Qoşqar, Sarıyal |
| 25.Göllü | Ömərdaşı, Zəligöl |
| 26. Keçili | Düzyurd, Qanlı, Ayrımca |
| 27. Qızılhacılı | Murov |
| 28. Qırmızı qazaxlar | Uzundərə |
| 29. Quruluq | Düzyurd, Magi |
| 30.Kələk (Şıxlar) | Yelliboyun |
| 31. Lək | Xaçbulaq |
| 32. Miskinli (Aykəndlə birgə) | Magi, Çobandağ, Qaşqabulaq, Ayrımca |
| 33. Mollaicmayıllı | Bala Qoşqar |
| 34. Morul | Çətindərə, Alıqaya |
| 35. Nəbiağalı | Ziyarət |
| 36. Sərkar | Hamamçay |
| 37. Sarıqamış | Qoşqar |
| 38. Qaraçay Səfikürdü | Soyuqbulaq |
| 39. Kürəkçay Səfikürdü | Bənövşəli |
| 40. Seyfəli | Kökyurd |
| 41. Sünnülər | Arxaşan |
| 42. Təhnəli göl, Otaqçı və Ovçulu | Çobandağ |
| 43. Tərs Dəllər | Düzyurd, Qaşqabulaq |
| 44. Tövləli | Qaşqaçay |
| 45. Faxralı | Xaçbulaq, Qaşqaçay |
| 46. Çaykənd | Kəpəz |
| 47. Şadılı | Xaçbulaq |

Bütün bunlarla yanaşı, 8 tüstü ilə Təknəli, 27 tüstü ilə Keçili və 6 tüstü ilə Qapanlı icmaları Qazax yaylaqlarında yurd salırdılar **[1, səh. 68-69].**

İlk baxışdan nizamsız bir axına, haylı-küylü xaosa bənzəyən köç, əsil həqiqətdə ciddi bir daxili intizama, sistemli bir qaydaya tabe idi. Belə ki, kənd yolları və taxıl zəmi-

ləri arasında hərəkət zamanı min başdan ibarət qarışıq sürüyə 8 çoban, 6 it və 2 ulaq tələb olunurdu ki, oturaq əhalinin əkininə və bağbostanına sürülər zərər yetirməsin. Bununla belə, köç zamanı köçün keçdiyi yerlərdə oturaq əhali ilə köç sahibləri arasında müəyyən dava-şavanın, narazılığın və qalmaqalın olması da istisna deyildi.

Topladığımız etnoqrafik-çöl materialları və ədəbiyyat göstəriciləri də sübut edir ki, bəhs olunan dövrdə Gəncəbasar bölgəsində yaylaqlara köçetmə qaydalarında müəyyən bir ardıcıllığa da əməl olunmuşdur. Etnoqraf H.A.Quliyev yaylaqlara köçetmə qaydalarında Azərbaycan üçün səciyyəvi olan 4 əsas ardıcıllığın olduğunu göstərmişdir: 1. Otlanmamış, ayaqlanmamış sahəni otarmaq üçün davar (qoyun sürüsü – V.V.) 5-6 saat əvvəldən göndərilir (buna "bir mənzil qabaqca" deyilir), sığır (mal-qara V.V.) və onun ardınca da yaylaq müxəlləfatı yüklənmiş və ailə üzvləri minmiş arabalar ayrıca yola salınır. 2.Davar və sığır birgə, arabalar isə ayrıca yola salınır. 3. Davar ayrıca, arabalar və sığır isə birlikdə yola salınır. 4. Bütün köç birlikdə yaulaqlara qalxır. Bəzən də belə bir ardıcıllığa rast gəlinir ki, davar 15-20 gün qabaq yaylağa yola salınır, qalanlar isə (sığır və köç müxəlləfatı) sonra köçə başlayır **[14, səh. 96].** Keçmiş Yelizavetpol quberniyasının Yelizavetpol və Qazax qəzalarında köçetmə qaydası belə idi ki, bütün icmalar birdən deyil, hissə-hissə köç edirdi. Əksər hallarda bir neçə ailə bir-birinə arxa-dayaq olmaqla yaylaqda eyni yurda düşmək üçün razılığa gəlirdi. Böyük sürü sahibləri icmanın digər üzvlərindən ayrıca, təkbaşına köç edirdi. Köç zamanı ən öndə qoyun sürüləri, bir qədər sonra onun arxasınca mal-qara naxırı, onun arxasınca isə at ilxısı hərəkət edirdi. Mal-davar və at ilxısı nə qədər çox olardısa, köçetmə vaxtı da bir o qədər çox uzanırdı. Ümumiyyətlə, ortabab təsərrüfat sahibləri davarla və mal-qara naxırı ilə eyni vaxtda köç etsə də, hər halda qabaqda qoyun sürüsü gedirdi. Daha varlı və nisbətən az varlı ailələr, demək olar ki, heç vaxt sürü ilə birgə köç etməzdilər. Onların yaylağa yola düşməsi xeyli sonralar, əksər hallarda mayın əvvəllərinə və ya sonlarına təsadüf edirdi. Yalnız yoxsul ailələr öz mal-davarı ilə birgə hamıdan əvvəl köç edərdilər **[6, səh. 126].**

Yaylaqlara köç edən ailə icmaları xüsusi olaraq bu məqsədə xidmət edən köç yollarından istifadə edirdilər. Köç yollarının seçilməsi, aralarında mübahisələrin, narazılıqların yaranmaması üçün, həm sürü sahibləri, həm də köçün keçdiyi ərazilərdə torpaq sahibi olan icmalar üçün olduqca əhəmiyyətli idi. **"**Köç yolları əsasən çay sahillərindən meşə ətəklərindən və dağların münasib yerlərindən, boran zamanı əhalinin və heyvanların mühafizısi üçün təbii sığınacaqlara imkanı olan yerlərdən keçirdi... Köç yolları ətrafından əkinçilik məqsədilə istifadə edilməzmiş, bu ərazilər köç zamanı mal-qaranı lazımınca yemləməyə imkan verərmiş" **[9, səh. 62].** XIX-XX əsrin əvvəllərində Gəncəbasar bölgəsinin yaylaqlara köç edən əhalisinin istifadə etdiyi köç yolları Kür çayının sol sahilindəki qışlaqlardan başlayır, Qaracəmirli, Dəllər, Qarasaqqal, Alpout və Qədili keçidlərindən qayıqlar və sallar vasitəsilə sürülərin çaydan keçirilməsi ilə səciyyələnir, buradan İncəçay, Qaraçay, Kürəkçay, Gəncəçay, Qoşqarçay, Cəyirçay və Şəmkirçay vadiləri ilə yaylaqlara doğru uzanırdı **[1, səh. 73].** Bir çox hallarda kəndlərarası yollar və poçt yolları ilə qovuşan köç yolları yaylaqlara yaxınlaşdıqca çətin keçilən çay vadiləri və dar cığırlarla əvəz olunur, sürü sahiblərinə əlavə çətinlik yaradırdı. Onu da qeyd edək ki, köç yollarından əsasən bölgənin maldar-elat əhalisi istifadə etsə də, oturaq əhalinin də iqtisadi həyatında onların müstəsna əhəmiyyəti vardı. Köç yolları ilə hərəkət edən aran kəndlərinin oturaq əhalisi öz məhsullarını (taxıl, meyvə, bostan-tərəvəz və s.) maldarlıq məhsullarına (yağ, pendir, yun, dəri və s.) dəyişmək üçün tez-tez yaylaqlara qalxırdı **[20, səh. 76].**

Gəncəbasar bölgəsinin Şəmşəddil əhalisi Tovuz və Zəyəm çayları boyunca uzanan köç yollarından istifadə edirdi **[6, səh. 128].** Buranın qərb bölgəsindəki yaylaqlarından istifadə edən Eldar kəndlərinin əhalisi (Poylu, Kəsəmən, Salahlı, Ömərağalı və Qarabağlı)

Ceyrançöl-Qədili keçidi- Alman koloniyası (Annenfeld) - Morul kəndinə kimi müstəqil hərəkət edir, buradan Yasamal yolu ilə yaylaqlara qalxırdı **[20, səh. 79-80].** XIX əsrin sonlarında Qazax və Yelizavetpol qəzaları əhalisinin birgə istifadə etdiyi köç yolları əsasən Yasamal yolu, Zəyəm dərəsi yolu, Kiran yolu, Sarı yoxuş yolu, Qoşa dəyirman yolu, Qızılbulaq yaylağına gedən yol və Zada yolundan ibarət idi **[17, səh. 149].** Zaqafqaziyada (Cənubi Qafqaz V.V.) maldarlıq təsərrüfatının tədqiqatçısı İ.Z.Andronikov XIX əsrin 80-ci illərində Yelizavetpol qəzası əhalisinin istifadə etdiyi 11 köç yolundan bəhs etmişdir ki, onlardan beşi (Yasamal, Sarıbulaq, Lüləli, Sarıyal, Qaraçinar yolları), müəllifə görə, köç üçün daha işlək və əlverişli olmuşdur **[2, səh. 120].**

XX əsrin 40-50-ci illərindən başlayaraq Gəncəbasar bölgəsi əhalisinin oturaq həyat tərzinə keçməsi, Sovet hakimiyyətinin dekretləri ilə torpaqların və otlaqların milliləşdirilərək ümumi dövlət mülkiyyəti elan edilməsi köçmə maldarlıq təsərrüfatının inkişaf etməsinə yardımçı olan ənənəvi köçetmə qaydalarını unutdurmuş, oturaq maldarlıq əsas təsərrüfat sahəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT:

1. Абелов Н.А. Экономический быть государственных крестьян Елисаветпольского уезда Елисаветпольской губернии // Материалы для изучения экономического быта государственных крестьян Закавказскаго края. (b undan sonra: МИЭБГКЗК). т. VII. ч. II. Тифлис, Типография А.А.Михельсона, 1887
2. Андроников И.З. Скотоводство в Закавказском крае // Свод МИЭБГКЗК., т. V, ч. I, Тифлис, Типография А.А.Михельсона, 1888.
3. Bünyadov T.Ə. Azərbaycanda qədim nəqliyyat vasitələri – Azərb.SSR EA Xəbərləri (ictimai elmlər seriyası). № 3, 1961
4. Буниятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, 1957.
5. Bünyadov T.Ə. Qızıl qaya. Bakı, Gənclik, 1984
6. Ерицов А.Д. Экономический быть государственных крестьян Казахского уезда Елисаветпольской губернии // МИЭБГКЗК, т. II, вып. 3, Тифлис, 1886
7. Hacıyev İ. Azərbaycanda maldarlığın formaları haqqında. // AEM, 3-cü buraxılış, Bakı, 1977.
8. Həvilov H.A. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991
9. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992
10. Кесаоглы. Кочевой быть Казахского уезда. // Экономический вестник Азербайджана (ежемесячный журнал), № 10-11 (71-72), 1925
11. Колесников Д. Кочевое скотоводство // Изв ООИА. № 3, 1926.
12. Геевский В.Н. Нижнее-Караязские казенные зимние пастбища Казахского уезда Елисаветпольской губернии // Материалы для устройства казенных летних и зимных пастбищ и для изучения скотоводства на Кавказе (bundan sonra: “Материалы для устройства...”), т. III, ч. I, Тифлис, Типография К.П.Козловского, 1895.
13. Гласко А.А. Казенные летние пастбища Тарсчайского и Акстафинского районов Казахского уезда Елисаветпольской губернии. // «Материалы для устройства…», т. III, ч. I, Тифлис, Типография К.П.Козловского, 1895
14. Гулиев Г.А. Этнографические проблемы скотоводческого хозяйства Азербайджана в XIX - начале XX в. Баку, Елм, 1996
15. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, 1958
16. Таракяма. Об условиях жизни кочвников-скотоводов в Азербайджане. // Изв.ООИА, № 3, 1926
17. Вермишев Х.А. Джейранчельские казенные зимние пастбища Казахского и Елисаветпольского уездов Елисаветпольской губернии. // «Материалы для устройства…», т. II, ч. I, Тифлис, 1890.

18. Весь Кавказ. Закавказье. Тифлис, 1914
19. Vəlili M. Azərbaycan. Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat (redaktor ak-k Z.Bünyadov). Bakı, 1993,
20. Vəliyev F.İ. XIX əsrdə Azərbaycanın qərb zonasında köç və köç yolları haqqında // Azərb.SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), № 2, 1989.

***Вусаля Рагиф кызы Вейсалова***

**О ПРАВИЛАХ КОЧЕВКИ И КОЧЕВЫЕ ДОРОГИ В ГЯНДЖАБСАРСКОЙ ЗОНЫ В XIX – НАЧАЛЕ XX ВВ.**

***РЕЗЮМЕ***

Представленная статья посвящена о правилах кочевки и кочевые дороги населений Гянджабасарской зоны в XIX-начале XX вв. В статье исследуются этнографические особенности кочевки, подготовка к кочевки, организовать кочевки, последовальности кочевки на летние пастбищах, название эйлагов и место стоянки – юрдов. В статье также показаны значения кочевые дороги, их маршруты и названия.

***Vusala Raqif gizi Veysalova***

**ON THE RULES OF KOCHEVKI AND NOMADIC ROADS IN GANJA AND ITS SUBURBS IN THE BEGINNING OF THE XIX-XX CENTURIES**

***SUMMARY***

Presented article is devoted to the migrations of the rules of the road, and nomadic populations in the area Qanja and its suburbs XIX and early XX centuries. The article investigates the ethnodraphic peculiarities of migrations, preparation for migrations, orqanized migrations, migrations posledovalsi, to summer pastures, the names eylaqov and m-parking esto - yurdov. V article also shows the values of the nomadic way their marchrute.